I TÜRKOLOJİ QURULTAY VƏ TÜRK DÜNYASININ ORTAQ ƏLIFBASI MƏSƏLƏSİ

Mirvari İsmayılova
Filologiya elmləri doktoru, professor
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Türkoloji Mərkəzin Türk dilləri bölməsinin müdiri,
"Mahmud Kaşğarlı" beynəlxalq elmi jurnalının həmtəsisçisi və baş redaktoru
Bakı, Azərbaycan
ismayilova.mirvari1960@gmail.com
orcid: 0000-0002-2085-544X

Xülasə

Məqalədə XX əsrdə Bakıda keçirilən, türk xalqlarının mədəni həyatında dərin izlər buraxan I Türkoloji qurultaydan bəhs edilir. Qurultayın çağırılması məsələsi ilk dəfə 1924-cü ildə Ümumittifaq Elmi Şərqşünaslıq Assosiasiyası - «Всесоюзная Научная Ассоциация Востоковедения» tərəfindən qaldırılır. 100 il keçməsinə baxmayaraq türk xalqlarının həyatında silinməz izlər buraxan I Türkoloji qurultayın bütün ağrısı və acısı ilə, dəhşətli represiyalar maşınından keçməsinə rəğmən müasir dövrümüzdə də türk dünyası üçün aktual, mədəni, tarixi hadisə kimi qeyd edilir. I Türkoloji qurultay türkologiya elminin tarixində yeni bir era, yeni bir başlanğıc, böyük dirçəliş, milli oyanış hadisəsi idi. Dünyanın bir çox ölkələrinin tanınmış türkoloqları bu qurultayda türk xalqlarının tarixi, dili, ədəbiyyatı, mədəniyyəti, əlifbası ilə bağlı bu gün də aktual hesab olunan məsələlərlə bağlı elmi məruzələr etmişlər. Qurultayda müzakirə olunan türk dillərinin əlifbası, orfoqrafiya və terminologiyası, yeni əlifbaya keçidin müəyyən olunması qurultayın başlıca məqsədlərindən idi. Bu məsələlər qurultaya böyük coşqu ilə qatılan türk xalqları nümayəndələrinin milli düşüncəsinin, milli varlığının, problemlərinin harayı idi. Qurultayın keçirilməsi olduqca mürəkkəb bir dövrə təsadüf edirdi. Şərq xalqları arasında mədəni quruculuq işlərinin həyata keçirilməsi üçün onların öz dillərində, daha tez mənimsənilə bilən əlifbaya ehtiyac vardı. Bu əlifba həm də türk xalqlarını birləşdirmək gücünə malik ortaq türk əlifbası rolunu oynamış olurdu. Müasir dövrümüzdə tam bir əsr keçməsinə baxmayaraq bütün türk xalqlarının latın qrafikalı əlifbaya keçməsi hələ də axıra kimi həll olunmamışdır, baxmayaraq artıq ümumi ortaq türk əlifbası qəbul olunmuşdur. Müasir türk dünyasının aktual məsələlərindən biri də ortaq türk dili məsələsidir.

Açar sözlər: I Türkoloji qurultay, türk xalqları, mədəni inkişaf, maarif, ortaq türk əlifbası, ortaq ünsiyyət dili, ortaq türk dili.

THE FIRST TURKOLOGICAL CONGRESS AND THE PROBLEM OF A GENERAL ALPHABET FOR THE TURKIC WORLD

Mirvari Ismayilova
Doctor of Philological Sciences, Professor
Azerbaijan State Pedagogical University
Head of the Turkic LanguagesDepartment
Turkology Center Co-founder and
Editor-in-Chief of the İnternational Scientific Journal

Mahmud Kashgarlı
Baku, Azerbaijan
ORCID: 0000-0002-2085-544X
ismayilova.mirvari1960@gmail.com

Summary

It was shown the First Turkological Congress, held in Baku in XX century, which left profound impresses on the cultural life of the Turkic peoples. The problem of convening the congress was first raised in 1924 by the All-Union Scientific Association of Eastern Exploring (Всесоюзная Научная Ассоциация Востоковедения). Although, it was passed 100 years the First Turkological Congress an event, that left an indelible imprint on the lives of the Turkic peoples continues to be commemorated in our modern era as a significant cultural and historical event for the Turkic world, and were remembered with all its pains and tragedies, as well as the terrible repressions, that followed it. The First Turkological Congress noted a new era, a new beginning, a major revival, and a national awakening in the history of Turkology, as a scientific discipline. Renowned Turkologists from many countries around the world presented scholarly reports at the congress on article,that related to the history, language, literature, culture, and alphabet of the Turkic peoples- the problem, that remain relevant today.

Among the main goals of the congress were the discussions on Turkic-language alphabets, orthography, terminology, and the determination of the transition to a new alphabet. This alphabet was expected to ensure the active participation of Turkic peoples in the country's cultural, scientific, and educational development, as well as in administration and official correspondence. This simultaneously reflected the policies of the Soviet state and the national consciousness, identity, and aspirations of the Turkic representatives, who participated in the congress with great enthusiasm. The congress took place during a politically complex period. For cultural developing among Eastern peoples, there was a need for an alphabet in their native languages one that could be learned more easily. This alphabet also served as a unifying script capable of bringing Turkic peoples closer together.

Although, a full century has passed, the complete transition of all Turkic peoples to a Latin-based alphabet remains unresolved, despite the adoption of a common Turkic alphabet. One of the current pressing matter of today's Turkic world is also the question of a general Turkic language.
Keywords: First Turkological Congress, Turkic peoples, cultural development, education, common Turkic alphabet, common language of communication, common Turkic language.

100 il keçməsinə baxmayaraq türk xalqlarının həyatında silinməz izlər buraxan I Türkoloji qurultay bütün ağrısı və acısı ilə, dəhşətli represiyalar maşınından keçməsinə rəğmən, türk dünyası üçün indi də mədəni, tarixi bir hadisə kimi qiymətləndirilir. I Türkoloji qurultay türkologiya elminin tarixində yeni bir era, yeni bir başlanğıc oldu. XI əsrdə böyük mütəfəkkir alim M.Kaşğarlı "Divanü lüğət-it türk" əsəri ilə dünya tarixində cahanşümul rol oynamış türklərin tarixi salnaməsini yaratmaqla bərabər, eyni zamanda türkologiya elminin başlanğıcını, əsasını qoymuşdur. XX əsrdə Bakıda türk xalqlarının mədəni həyatında dərin izlər buraxan I Türkoloji qurultay keçirildi. Bu qurultay türk dünyasında, türk xalqlarının həyatında böyük dirçəliş, milli oyanış hadisəsi oldu, Türk dünyasının milli şüurunun formalaşmasında əhəmiyyətli rol oynadı.

Qurultayın çağırılması məsələsi ilk dəfə 1924-cü ildə Ümumittifaq Elmi Şərqşünaslıq Assosiasiyası - «Всесоюзная Научная Ассоциация Востоковедения» tərəfindən qaldırılır. Elə həmin ildə Azərbaycanda da qurultayın keçirilməsi ilə bağlı qərar qəbul edilir (1; 2). "Divanü lüğət-it türk" əsəri ilə tanışlıq onun yazılmasından uzun müddət sonra baş verir. I Türkoloji qurultay da amansız pepressiyalara məruz qalır, qurultayda qəbul olunmuş qərarların üzərinə qara dəmir pərdələr endirilir, qurultayda iştirak etmiş türk xalqlarının nümayəndələri, alimlər məhv edilir (3; 4).

Dünyanın bir çox ölkələrinin tanınmış türkoloqları bu qurultayda türk xalqlarının tarixi, dili, ədəbiyyatı, mədəniyyəti, əlifbası ilə bağlı bu gün də aktual hesab olunan məsələlərlə bağlı elmi məruzələr etmişlər. Qurultayda müzakirə olunan türk dillərinin əlifbası, orfoqrafiya və terminologiyası, yeni əlifbaya keçidin müəyyən olunması qurultayın başlıca məqsədlərindən idi. Bu məsələlər qurultaya böyük coşqu ilə qatılan türk xalqlarının nümayəndələrinin milli düşüncəsinin, milli varlığının, problemlərinin harayı idi. Qurultayın keçirilməsi olduqca mürəkkəb bir dövrə təsadüf edirdi. Şərq xalqları arasında mədəni quruculuq işlərinin həyata keçirilməsi üçün onların öz dillərində, daha tez mənimsənilə bilən əlifbaya ehtiyac vardı. Bu əlifba ölkənin mədəni, elm və təhsil sahəsində, idarəetmədə, işgüzar yazışmalarda türk xalqlarının yaxından iştirakını təmin etməli idi. Türk xalqlarının fonetik sisteminə uyğun olmayan ərəb əlifbasından imtina və latın və ya kiril əsaslı əlifbaya keçid qurultayda müzakirə olunan əsas məsələlərdən biri, bəlkə də birincisi idi. Ərəb əlifbasından latın qrafikalı əlifbaya keçid məsələsi hələ 1922-ci ildə Səmədağa Ağamalıoğlunun Lenin ilə söhbətində də qaldırılmışdı. Lakin bu məsələ 1924-cü ildə ciddi şəkildə müzakirə olunmağa başlayır.

Çünki ərəb əlifbasından istifadə edən türk xalqlarının ölkənin mədəniyyət, elm və təhsil sahəsində, dövlət idarəetməsində yaxından iştirakında çətinlik törədirdi. Bu əlifbadan istifadə ölkə daxilində ümumi anlaşma üçün də maneə idi. Savadsızlığın aradan qaldırılması, ölkə daxilində yazışmalarda da bu əlifba uyğun deyildi. Yeni əlifbaya keçid türk xalqlarının dövlətin ictimai-siyasi həyatında yaxından iştirakını, ünsiyyətini, cəmiyyətə inteqrasiyasını təmin etmiş olurdu.

I Türkoloji qurultayda ən mühüm problem kimi irəli sürülən yeni əlifbaya keçid türk xalqlarının cəmiyyətə inteqrasiyasını təmin etməli idi. Lakin bu əlifbanın qəbulu həm də türk xalqlarını birləşdirmək gücünə malik ortaq türk əlifbası statusunu qazanmış olurdu. Türk xalqlarının "ortaq" əlifbasının müəyyənləşdirilməsi bu xalqların anlaşması, tarixi, dili, mədəniyyətinin öyrənilməsi, birləşdiricilik arzularının, strategiya və missiyasının təməli idi. Görünür buna görə latın qrafikalı əlifbanın qəbulu məsələsi ətrafında gedən müzakirələrə diqqət böyük idi. Ərəb əlifbasından latın və ya kiril əsaslı əlifbaya keçid məsələsi üzərində müzakirələr latın qrafikalı əlifbaya keçid qərarı ilə nəticələndi (2). Türk xalqlarının maarifpərvər ziyalılarının, qabaqcıl fikirli alimlərinin Türkiyəyə, Avropaya meylləri daha güclü idi.

Öz dövrü üçün çox cəsarətli və "dəlilik" hesab edilən latın əlifbasına keçid ideyası ilk dəfə Azərbaycanın böyük mütəfəkkiri M.F.Axundov tərəfindən irəli sürülmüşdü. M.F.Axundovun latın qrafikalı əlifba layihəsi təqdim etdiyi nə İranda, nə də Türkiyədə qəbul edilməmişdi. Ortaq türk əlifbası ideyası isə daha sonrakı dövrün məhsuludur.

Müasir dövrümüzdə dildə və mədəniyyətdə diferensiasiya prosesinin qloballaşan inteqrasiyanın əksinə olaraq güclənməsi müşahidə olunur. Bunun ən başlıca səbəbi xalqların milli mənliyinin, milli özünüdərk hissinin güclənməsi ilə bağlıdır. Lakin türk dünyasında baş verən proseslər, türk xalqlarının bir-birinə inteqrasiya zərurəti və istəyi ortaq türk dilinin, ortaq türk əlifbasının qəbulunu zəruri etmişdir. Bu istək türk dövlətlərinin sıx kontakt qurmasına aparır. Nəticədə qohum dillərin yaxınlığı nəticəsində ümumi struktur elementlərin və əlamətlərin meydana çıxması ortaq türk əlifbasını reallaşdıra bilər. Hədəfdə türk xalqlarının ortaq türk dilinin yaradılması ideyası durur. Bunun üçün qəbul olunmuş ayrı-ayrı türk xalqlarının latın qrafikalı əlifbasının təhlilinə ehtiyac var.

Müasir dövrümüzdə dünyada baş verən qloballaşma türk dünyasına da təsirini göstərmişdir. XXI əsrin intensiv prosesi olan qloballaşma müasir dövrün bütün sahələrinə sirayətedici təsir etmişdir. Sosial səciyyə daşıyan inteqrasiya qarşısıalınmaz bir güc kimi türk xalqlarının da həyatına müdaxilə etmişdir.

Qloballaşan dünyada inteqrasiya və differensiasiya proseslərindən hansının qarşılıqlı təsir nəticəsində üstün gələcəyini izləmək, proqnozlaşdırmaq, bu prosesə təsir etmək imkanlarının,

perspektivlərinin xüsusilə türk dilləri, türk dünyasında baş verən proseslər kontekstində araşdırılması müasir dövrümüzlə səsləşən aktual məsələdir. Türk dillərinin sonrakı mərhələlərində bu proseslərdən hansının daha əhəmiyyətli rol oynayacağını, ortaq türk dilinin perspektivlərini müəyyən etmək və bu prosesdə ortaq türk əlifbasının təsiretmə mexanizmlərinin müəyyənləşdirilməsi bir çox türkoloq alimləri, qabaqcıl fikirli insanları düşündürür. Qeyd etmək lazımdır ki, Qərb siyasətçiləri də dillərin diferensiasiyası məsələsini düzgün qiymətləndirməyə çalışır, dövlət isə regional dilləri qorumaq üçün dəstək verir. Bu dəstək isə həm hüquqi, həm də maddi formada tolerantlıq şəraitində baş verir. Qərbin liberal və demokratik siyasəti dilə qarşı plüralist və tolerant münasibət sərgiləyir. Məlum olur ki, xalqlar, kiçik etnoslar öz milli mənliyini təsdiq və təqdim etmək üçün dirəniş göstərirlər, çünki hər bir etnodilin öz orijinallığını dirçəltmək və qorumaq hissi çox güclüdür. Bunun ən başlıca səbəbi xalqların milli mənliyinin, milli özünüdərk hissinin güclənməsi ilə bağlıdır. İnsanlar "fərqli olmaq hüquqlarına həssaslıqla yanaşırlar. Hər il fevralın 21-də qeyd olunan Beynəlxalq Ana dili günü də dünyada baş verən inteqrasiya prosesinə əks təsir göstərən differensiasiya ilə bağlıdır. Yəni hər il fevralın 21-də dünya səviyyəsində qeyd olunan Beynəlxalq Ana Dili Günü dil və mədəni müxtəliflik haqqında məlumatlılığı və çoxdilliliyi təşviq və təbliğ etmək məqsədi ilə keçirilməsinin nəticəsidir. Hər bir xalq vahid dünyaya milli kimliyini təqdim etməklə daxil olmaq istəyir və bu hiss müasir dövrümüzdə daha güclü şəkildə özünü göstərir. Belə səbəblərdən biri psixoloji səciyyə daşıyır. Dildə və mədəniyyətdə diferensiasiya prosesinin qloballaşan inteqrasiyanın əksinə olaraq güclənməsi qanunauyğundur. Bu xalqların milli özünüdərk hissi ilə bağlıdır. Son onilliklərdə bütün dünyada xüsusilə kiçik xalqlarda milli özünüdərk hissinin artmasını görməmək mümkün deyil. Məsələn, Böyük Britaniyada şotland, uels və irland dillərinin mövqeyinin güclənməsi buna sübutdur. Eyni zamanda Fransanın dil diferensiasiyasına aid dil siyasəti buna parlaq nümunədir. Fransız dilindən ingilis dilinə aid alınmaların bütünlüklə dildən çıxarılması və əvəzində nitqdə onların fransız ekvivalentinin işlənməsi xalqın dil qürurunu ifadə edir. Bu proses milli özünüdərk səviyyəsində qiymətləndirilməlidir. Məsələn, Kanadada ingilis və fransız dillərinin hüquqi cəhətdən bərabər olduğu şəraitdə faktiki olaraq ingilis dilinin dominantlıq etməsinə cavab kimi Kvebekedə separatizmin artması tendensiyası bu şəraitdə labüd, qanunauyğun hal kimi qəbul olunmalıdır. Müasir dövrümüzdə diferensiasiya və inteqrasiya proseslərinin inkişaf tendensiyası bəzən fərqli şəkildə özünü göstərir. Bu hadisə müxtəlif cəmiyyətlərdə baş verən siyasi-iqtisadi proseslər nəticəsində meydana çıxır. Məsələn, serb-xorvat dilində Bosniya və Xorvatiyanın siyasi cəhətdən ayrı-ayrı ərazilərə parçalanması dil diferensiasiyası prosesini yaratdı. Bu həm xorvat, eləcə də Bosniya serblərinin öz müstəqil dillərinin ayırma cəhdi ilə baş verdi (Bax: 3, 6-24).

Azərbaycanda da dil siyasəti dövlətin, xalqın prioritet məsələsidir. Bu proses milli özünüdərk səviyyəsində qiymətləndirilir. Bu mənada Azərbaycanda ingilis və rus dillərinin öyrənilməsinə diqqət verilməsi, bu dillərdə təhsilə meylin artması Azərbaycan dilinin daşıyıcılarının azalmasına təhlükə yarada biləcəyi inandırıcı görünmür. Bu milli qürurla bağlı məsələdir. O insanın ki, dillə bağlı qüruru var, hansı dildə təhsil almasından asılı olmayaraq ailədə, ictimai yerlərdə dilini sevərək fəxrlə Azərbaycan dilində danışacaq.

Bu prosesə türk dünyasında necə yanaşıldığını izləmək də maraqlıdır. İnteqrasiya differensiasiyadan fərqli olaraq dillərin sıx kontakt qurmasına aparır, nəticədə qohum və qohum olmayan dillərdə ümumi struktur elementlər və əlamətlər meydana çıxır. Dillərin fonetik, leksik və qrammatik sistemində olan eynilik, eləcə də alınmaların çoxluğu səbəbi də bu proseslə bağlıdır. Məsələn, müasir dövrümüzdə türk xalqlarının ortaq türk dili yaratmaq istəyi Türk dünyasında inteqrasiya prosesinin güclənməsi nəticəsində olmuşdur və bu türk dövlətlərinin sıx kontakt, ünsiyyət qurmaq istəyinin göstəricisidir. Nəticədə qohum dillərin yaxınlığı nəticəsində ümumi struktur elementlərin və əlamətlərin meydana çıxması ilə ortaq türk dili reallaşa bilər. Dillərin fonetik, leksik və qrammatik sistemində olan eynilik, həmçinin saysız-hesabsız alınmaların çoxluğu bu prosesdə nəzərə alınmalıdır.

Ortaq türk dili yaratmaq istəyi XX əsrdə də baş vermişdir. O zaman bu məsələ siyasi təqiblərin qurbanı olaraq dayandırılmışdır. Dilçilikdə süni dil (esperanto) yaratmaq meyli də mövcud olmuş, lakin bu proses uğursuzluqla nəticələnmişdir. Hesab edirik ki, bu perspektivi olmayan ideya idi. Əslində ortaq türk dili yaratmaq istəyi süni dil yaratmaqdan bir qədər fərqli olsa da, onun reallaşması da o qədər asan iş deyil. Çünki söylədiyimiz kimi xalqların milli kimliyini, identikliyini qorumaq hissi çox güclüdür. Çox qədim köklərlə bağlılıq, əsrlərin sınağından keçərək qorunub saxlanan bir-birinə yaxın olan dil, din, genetik qohumluq: türk kimliyi, həyata baxış, türk fəlsəfi dünyagörüşü ilə yanaşı müstəqil şəkildə formalaşmış hər bir türk dilinin öz milli identikliyini qorumaq cəhdi çox güclüdür. Eləcə də türk xalqlarının ortaq türk dili yaratmaq ideyasına münasibəti də birmənalı deyil. Amma hər halda Türk Dövlətləri Təşkilatının mövcudluğu, bir-birilə iqtisadi, elmi, mədəni, hərbi əlaqələr yaratmaq istəyinin qarşısıalınmaz hal alması ortaq ünsiyyət vasitəsinə ciddi ehtiyac yaratmışdı. Digər tərəfdən Türkiyə Respublikasının Rusiyadan tutmuş dünyanın hər yerindəki bütün türk dövlətləri ilə iqtisadi, siyasi əlaqələr qurması türk dilinin öyrənilməsini sürətləndirmişdir. Bu reallıqdır. Dilin təbii yolla yayılması, onun qarşısının alınması hər halda qeyri-mümkündür. Nəticədə türk dili türk xalqları arasında ortaq ünsiyyət vasitəsi rolunu öz əlinə almışdır. Bu süni yolla deyil, təbii yolla baş vermişdir. Türkiyədə turizmin inkişafı, mədəni xidmət sferasının yüksək səviyyədə təmin olunması, münbit alış-veriş şəraiti dünyanın hər yerindən turistlərin və iş adamlarının ölkəyə axınını artırmışdır. Bu isə istər-istəməz Türk dilinin öyrənilməsini zəruri etmişdir. Eləcə də demək olar ki, dünyanın hər yerində türk mətbəxinin populyarlaşması, türk iaşə obyektlərinin açılması, Türk filmlərinə-seriallarına maraq və bir çox digər amillər də (məsələn, hərbi güc) türk dilinin öyrənilməsini şərtləndirmiş, onun ortaq ünsiyyət dili olmasına böyük təkan vermişdir. Beləliklə, dövlətin yeritdiyi siyasi, mədəni, ticari münasibətlərin inkişafı Türk dilinin öyrənilməsini şərtləndirmişdir. Türkiyə türk xalqları ilə ictimai-siyasi, iqtisadi, mədəni və s. əlaqələrin qurulmasına xüsusi əhəmiyyət verir. Qeyd edək ki, Türkiyə yalnız türk dövlətləri ilə deyil, dinindən və irqindən asılı olmayaraq dünyanın bir çox ölkələri ilə mədəni, iqtisadi əlaqələr qurur. Təbii ki, bu amil də Türkiyəyə marağın artması, eləcə də türk dilinin öyrənilməsini aktuallaşdırmışdır. Bütün bunlar türk dilinin ortaq ünsiyyət vasitəsi kimi istifadəsini təsdiq etmişdir. Türk xalqlarının nəzərdə tutduğu ortaq türk dili funksiyasını ortaq ünsiyyət dili kimi istifadə edilən Türk dili yerinə yetirə biləcəkmi, digər türk xalqlarının məsələyə münasibəti necədir? Burada daha bir məsələni dəqiqləşdirmək istərdik. "Ortaq türk dili" və "ortaq ünsiyyət vasitəsi" anlayışları özündə nəyi ehtiva edir. Təbii ki, "ortaq türk dili" və "ortaq ünsiyyət dili" anlayışlarına fərqli yanaşılmalıdır. Hal-hazırda dünyanın hər yerinə səpələnmiş türk xalqları bir-birilə ünsiyyət qurarkən əsasən müasir Türkiyə dövlətinin istifadə etdiyi Türk dilindən istifadə edirlər. Türk dili eyni zamanda türk dünyası ilə əlaqə qurmaq istəyən digər xalqların da istifadə etdiyi dildir. Biz hesab edirik ki, müasir dövrümüzdə türk dövlətlərinin qarşılıqlı anlaşması üçün işçi termin kimi "ortaq ünsiyyət dili" anlamından istifadə etmək hələlik daha məqsədəmüvafiqdir. "Ortaq ünsiyyət dili" rolunda isə dünyada çox geniş yayılmış müasir Türk dili uğurla çıxış edir. Lakin ortaq ünsiyyət dili olan Türk dili ortaq türk dili statusunun tələblərini tam ödəyə bilmir, çünki müasir Türk dili həddindən artıq alınma sözlərlə yüklənmişdir. Bu isə ortaq dil tələblərinə ziddir. Artıq qloballaşan dünyada super gücə çevrilmiş müasir Türkiyə Respublikasının dövlət dili olan Türk dili qarşılıqlı ünsiyyət vasitəsi kimi həm türk dövlətləri, həm də böyük türk dünyasına maraq göstərənlər, eləcə də dünyaya açıq olan Türkiyənin dünyaya marağından irəli gələrək dominant rol oynayır. Türkiyənin dünyanın hər yerindəki bütün türk və qeyri-türk dövlətləri ilə iqtisadi, siyasi əlaqələr qurması, eləcə də dünya dövlətlərinin Türkiyə ilə hərbi, iqtisadi, siyasi əlaqələrə can atması, Türkiyəyə böyük turist axını türk dilinin öyrənilməsini sürətləndirmişdir. Bu reallıqdır. Dilin təbii yolla yayılması, onun qarşısının alınması üçün maneələr yaratmaq hər halda qeyri-mümkündür. O ki, qaldı "ortaq türk dili" məsələsinə. "Ortaq türk dili" müasir türk xalqlarının bir-birini tam anlaması üçün yaradılacaq "dil"dir. Əlbəttə, bu vaxtilə dilçilərin yaratmaq istədiyi "süni dil" olmayacaq, çünki türkləri bir-birilə bağlayan ən güclü bağ diferensiya prosesində yaranmış fərqlərə baxmayaraq dillərinin bir-birinə yaxınlığıdır. Uzun müddət bir-birindən çox aralı düşmüş, fərqli dil birliyinə daxil olmuş ayrı-ayrı türk xalqları arasında şox ciddi dil baryeri olmasa da, hər halda onlar

mövcuddur. Təbii ki, bunun aradan qalxması müəyyən vaxt tələb edəcək. Zamanla ortaq türk dilinin konturları yəqin ki, dəqiqləşəcək. Bu dildə təbiiseçmə yolu ilə baş verəcək və hər bir türk dövlətinin öz dilinə münasibəti, aparılan dil və əlifba islahatları, eləcə də onların Ümumtürk ailəsinə bu sahədə verəcəkləri istək və töhfələrlə bağlıdır. Türk xalqları mədəni, iqtisadi əlaqələri artırmaqla, elmi mübadiləsi artırmaqla bu sahədə təbii seçmə yolu ilə nailiyyətlər əldə edə biləcəklər. Zənnimizcə, ilk addım kimi Türk Dövlətləri Təşkilatına daxil olan türk dövlətlərinin istifadə edə biləcəyi çoxdilli danışıq lüğəti ortaq sözlərin təbiiseçməsi ilə nəticələnə bilər Yaradıcılacaq ortaq (məsələn, ortaq musiqi, dilçilik və s.) terminləri lüğətləri, ortaq terminologiya da qarşılıqlı anlaşmanı, dili, ünsiyyəti asanlaşdıracaq.

Ortaq türk dilinin yaranmasına təkan verən ciddi bir amil də mövcuddur, bu da ortaq türk əlifbasının yaradılmasında qarşıda olan maneələrin aradan qaldırılmasıdır.

1980-ci illərin ikinci yarısından başlayaraq Azərbaycanda müstəqillik hərəkatı yenidən latın qrafikalı əlifbaya keçidi aktuallaşdırdı. Latın əsaslı yeni əlifbanın qəbul edilməsi prosesində əsas mübahisələr Azərbaycan dilinə məxsus spesifik hərflərə uyğun işarələrin qəbul edilməsi ilə bağlı olmuşdur**.** Müasir dövrdə ortaq türk əlifbasının həyata keçirilməsi üçün ilk növbədə ideal əlifbanın meyarları nəzərdən keçirilməlidir. Əlifbaların dəyişdirilməsi prosesini izləyərkən, daha çox dillərin latın əsaslı qrafikaya keçməsi ilə üzləşirik. Əlifbanın kamilliyini yerinə yetirən funksiyalar: 1) bir tərəfdən nitqi dildəki səslər əsasında canlandırmaqdan ibarətdirsə, 2) digər tərəfdən nitqi yazıya köçürməkdir. Bu iki funksiya bir-biri ilə sıx qarşılıqlı əlaqədədir və bəzən onların arasındakı sərhədi müəyyənləşdirmək belə çətindir. İdeal əlifbanın meyarları məşhur dilçi Boduen de Kurtene tərəfindən irəli sürülmüşdür. O, əlifbanın ideal olması üçün bir sıra tələblərin ödənilməsinin vacib olduğunu qeyd edərək yazmışdır: «1)dildəki hər səs xüsusi və müstəqil işarə-hərflə ifadə olunmalıdır; 2)eyni bir işarə bütün hallarda yalnız bir səsi bildirməlidir; 3)eyni səs bütün məqamlarda mütləq eyni işarə ilə ifadə olunmalıdır; 4)yazıda bu və ya digər səsin tələffüzünü bildirməyən heç bir artıq işarə olmamalıdır; 5)bütün səslər yazıda ifadə olunmalıdır; 6)səslərin fərqli variantları, oxşar olmayan modifikasiyalarını bir-birindən tamamilə fərqli işarələrlə göstərmək lazımdır; 7)dildə olmayan və ya işlədilməsi mümkün olan səslərin deyil, yalnız mövcud səslərin yazıda ifadəsinə səy göstərilməlidir» (6,12). Ümumiyyətlə, dildə olan fonem-səslərin miqdarı qədər hərfi olan əlifba ideal əlifba hesab olunur. A.Qurbanov müasir əlifbanın dörd tələbə cavab verməli olduğunu qeyd edir (7, 714-715).

Əlifbaların kamillik, yaxud ideallıq dərəcəsini konkret qiymətləndirmə meyarı yoxdur. Yuxarıdakı prinsiplər əsasında müxtəlif əlifbaların bir-biri ilə müqayisəsi zəminində hansı əlifbanın daha kamil olmasını qeyd etmək olar. Məsələn, türk dilində sözlərin birinci hecasında və təkhecalı sözlərdə **e** hərfi **ə** kimi oxunur. Lakin türk əlifbasında **ə** saitini bildirən ayrıca hərf yoxdur. Rus dilində həm **а**, həm də **о** saitini bildirən hərf olsa da bir sıra sözlərdə o yazılsa da, a oxunur və s. İngilis dilində liqatur hərflər çoxdur, məsələn, ture liqaturu ç, sion və tion isə ş fonemini bildirir. Bütün bunlar həmin əlifbaların qüsurlu cəhətləridir. Azərbaycan dilində 32 fonem vardıır. Bu cəhət əlifbada da 32 qrafemin olmasını tələb edir. Azərbaycan dilinin müəyyən tarixi inkişaf dövrlərində bu dilin fonemlər sistemində sağır nun (işarəsi N_1, n_1; $N_,$, $n_,$) səsi də olmuşdur. Bu səs müasir Azərbaycan dilində (nq) birləşməsinə uyğun gəlir. İngilis dilində də belə bir səs vardır (8). Qədim yazılı abidəmiz - «Kitabi Dədə-Qorqud» dastanlarının dilində sağır nun fonemi işləkdir. 1929-cü ildə qəbul olunmuş latın qrafikalı əlifbaya sağır nun fonemini ifadə edəcək qrafem daxil edilmişdi. Lakin müasir Azərbaycan dilində bu fonemin işlənməməsi həmin fonemə uyğun işarənin dildən çıxarılmasına imkan vermişdir.

Kiril əsaslı Azərbaycan əlifbasına hərf səciyyəsi daşımayan, səsin uzun tələffüzunu bildirən bir diakritik işarə (‘) – apostrof da daxil edilmişdi. (6, 252; 8, 67). Apostrofun Azərbaycan əlifbasından çıxarılması hələ kiril əlifbasının işlədildiyi dövrdə dəfələrlə müzakirə obyekti olmuşdur. Latın qrafikalı yeni əlifbanın layihəsinin müzakirəsi zamanı da apostrof ətrafında elmi

mübahisələr getmiş, apostrof yeni Azərbaycan əlifbasının işarələr sisteminə salınmamışdır. Azərbaycan, eləcə də özbək və digər türk dillərinin əlifbasına daxil olmayan işarənin işlədilməsi dilin orfoqrafiya normalarına uyğun deyildir. İşarənin orta məktəbdə tədris prosesində istifadəsi bu və ya digər dərəcədə özünü doğrultsa da, ümumən qüsurlu cəhətdir. Tədris prosesində tərkibində uzun Ə, E, Ö saitlərinin olduğu sözlərin istisna hallar kimi öyrədilməsi məqsədəuyğundur. Müxtəlif dillərdə belə istisna hallar dilin öyrədilməsi prosesində nəzərə alınır. Yuxarıda göstərilənlərə əsaslanaraq demək olar ki, qeyd olunan iki səs ətrafında gedən mübahisələr nəzərə alınmazsa, Azərbaycan dilinin fonemlər sistemində 32 fonemin olması faktı tam təsdiqlənir. Dilin yeni əlifbasında da 32 fonemə uyğun gələn 32 qrafem vardır. Deməli, əlifbanın kamilliyinin birinci kriteriyası yeni əlifbamız üçün ödənilir. Əlifbanın kamilliyinin əsasında duran bir prinsip də bir qrafemin müxtəlif şəkildə oxunmasının, yəni onun qarşılığının iki müxtəlif səs olmasının aradan qaldırılmasıdır. Müxtəlif əlifbalar üçün bu meyar pozulur. Məsələn, ingilis dilində C hərfi sözdəki yerindən və özündən əvvəlki saitdən asılı olaraq (S) və (K) fonemlərinin qarşılığı kimi çıxış edə bilir. Rus əlifbasındakı o saiti bir sıra sözlərdə (a) foneminin qarşılığı olur, digər hallarda bu hərf (o) fonemini ifadə edir. Yeni Azərbaycan əlifbasında göstərilən cəhət yalnız K qrafeminə aiddir. Bu qrafem rus dilindən alınmış sözlərdə (K) tələffüz olunur. Lakin bu hal qeyd olunmuş meyarın pozulması deyildir. Əlifbanın kamilliyini müəyyən edən daha bir prinsip eyni səsin bütün hallarda eyni işarə ilə ifadə olunmasıdır. Əgər bir qrafem yalnız bir səsə uyğun gəlirsə, onda eyni səsə də bir qrafem uyğun gəlmiş olur. Kiril əlifbasına daxil edilmiş apostrof da adekvat rolu oynamışdır. Yeni Azərbaycan əlifbasında isə belə əlavə işarə yoxdur. Aparılmış təhlildən aydın olur ki, Boduen de Kurtenenin ideal əlifba üçün təklif etdiyi yeddi prinsipin yeddisi də latın qrafikalı yeni Azərbaycan əlifbasında nəzərə alınmışdır. Buradan belə nəticə çıxır ki, fonem-qrafem uyğunluğu prizmasından yanaşıldıqda yeni əlifba idealdır (6; 8).

Əlifba yazı ilə bağlı bir sıra digər tələblərə də cavab verməlidir. Bu tələblər əsasən diakritik işarələrlə bağlıdır. Diakritik işarə (diacritical sign)- hərfin yanında həmin hərfin başqa cür oxunması məqsədilə istifadə olunan işarədir. Diakritik işarə hərfə birləşdirilə və ya ondan ayrı verilə bilər. Diakritik işarənin hərfin yanında ona birləşmədən ayrıca işlənən formaları da çoxdur. Belə işarələrin hərfin üzərində qoyulması daha geniş yayılmışdır: **þ**, Ö, È, j, ü, i, ĉ, Ĭ, Ÿ və s. Əlifbalarda istifadə olunan əsas diakritik işarələr aşağıdakılardır: -, ..,V,\ Latın qrafikalı yeni Azərbaycan əlifbasında diakritik işarəli 16 hərf vardır: **Ç, ç, İ, i, j, t, F, Q, Ö, ö,Ü, ü, Ş, ş,Ğ, ğ.** Bu hərflərdən səkkizi baş hərf **- Ç, İ, F, Q, Ö, Ü, Ş, Ğ,** səkkizi də kiçik hərfdir**: - ç, i, j, t, ö, ü, ş, ğ.** Əlifbanın 64 işarəsinin 25 faizi diakritik işarəlidir. Bu da hər dörd hərfdən birinin diakritik işarəli olmasını göstərir. Nəzərə almaq lazımdır ki, Öö və Üü hərflərinin üzərində qoyulan iki nöqtə yazı prosesində iki əməliyyatı özündə birləşdirir. Sait fonemlər işləklikliyə görə samitlərdən daha məhsuldardır. Təbii ki, əlifbanın doqquz sait fonemindən üçünün diakritik işarəli (özü də iki nöqtə tipli) olması əlifbanın qüsurlu cəhətidir. Beləliklə, aydın olur ki, fonem-qrafem uyğunluğu nöqteyi-nəzərindən ideal olan Azərbaycan əlifbası, diakritik işarələrin çoxluğuna görə yazı üçün ideallıqdan uzaqdır.

Digər türk dillərinin müasir əlifbalarını da nəzərdən keçirmək bu istiqamətdə görüləcək işlərə müsbət təsir göstərə bilər. Özbək dili müasir türk dilləri arasında Türk və Azərbaycan dilindən sonra ən çox danışılan üçüncü dildir. Bu gün özbək əlifbasında 35 hərfdən istifadə olunur. Özbəkistan postsovet məkanında latın əlifbasına keçən ilk dövlətlərdən olsa da, əlifbaya 1995-ci ildə edilən dəyişiklik bu əlifbanı ortaq türk əlifbasından uzaqlaşdırmış, onun istifadəsində çətinlik yaratmışdır. Burada ortaq türk əlifbasında və türk-latın əlifbalarının heç birində olmayan işarələr mövcuddur. Bugünkü özbək əlifbası öz spesifik xüsusiyyətləri ilə digər türk dillərindən seçilir. Özbək dilində ı fonemi yoxdur. Hətta tərkibində ı fonemi olan alınma sözlərdə də bu fonem i fonemi ilə əvəz olunur. Özbək dilində işlənən ayrı-ayrı saitlər də fərdi xüsusiyyətlərə malikdir. Buna nümunə olaraq i fonemini qeyd edə bilərik. i fonemi oğuz qrupu türk dilləri ilə müqayisədə, bir növ, i ilə ı, e fonemləri arasında ortaq bir mövqe tutur: oldı (aldı) və s. ў saiti o, ö kimi, o saiti

isə həm o, həm də dodaqlanan å kimi müşahidə olunur: ўз (öz), vodi (dərə), ota (ata) və s. Özbək dilində istifadə edilən bütün saitlər (å istisna olmaqla) digər türk dilləri ilə, demək olar ki, eynidir. Yanlız å saiti özbək dilini digər türk dillərindən ayıran səciyyəvi bir saitdir, qalın, açıq və dodaqlanmayan a-dır, o səsinə yaxın şəkildə tələffüz edilir. İstər türk mənşəli, istərsə də alınma sözlərdəki uzun a-lar bu dodaqlanmayan şəkli ilə istifadə edilir. Özbək dilində 25 samit fonem vardır. Onların yazıdakı işarəsi isə 23-dür (j və dj (c) fonemləri j, nq (sağur nun) isə n+q birləşməsi ilə verilir). Sağur nunun qoşa qrafemlə verilməsi isə özünü doğrultmur. Özbək dilində sağur nun (nq) samiti geniş işlənir. Kiril əlifbasındakı sıralamaya görə bu samitlər aşağıdakılardır: b, v, g, d, c, j, z, y, k, l, m, n, p, r, s, t, f, x, t, s, ç, ş, q, ğ, h, nq samiti üçün isə ayrı bir işarə yoxdur. Ts (ц) hərfi isə rus mənşəli sözlərdə müşahidə edilir: tsirk (sirk), militsiya (polis). Kiril əlifbasında y səsi beş ayrı işarə ilə qeyd olunur: − müstəqil y (й), − sözün əvvəlində e ilə birlikdə e=ye, − sözün başında å ilə birlikdə я=yå, − Sözün əvvəlində å ilə birlikdə ё=yå, − Sözün əvvəlində u, ü ilə birlikdə ю=yu, yü. Beləliklə, 23 samit kiril əlifbasında 27 işarə ilə göstərilməkdədir. Özbək dilinin səs quruluşuna yad olan işarələrin əlavə olunması, ı, ü saitlərini əks etdirən hərflərin olmaması, h, x, k, q, n samitlərinin ikivariantlığı əlifbanı qeyri-praktik etmişdir.

Dil və əlifba islahatının həyata keçirildiyi Türkiyədə müəyyən hərflərin əlifbadan çıxarılması həmin hərflərin ifadə etdiyi səslərin fonem funksiyalarının itirilməsinə və unudulmasına səbəb olmuşdur. Nəticədə ərəb əlifbasının tətbiq olunduğu zamanlarda dildə istifadə edilən fonemlərin əlifbada olmaması xüsusən onun samit hərflərində tələffüz normalarında da fərqliliklər yaratmışdır. Türkiyədə təqribən 75 il davam edən əlifba islahatı prosesinin sonunda 1928-ci ildə latın hərflərinə əsaslanan türk əlifbası qəbul edilir. Qanuna görə, iki ay sonra, yəni 1929-cu ilin əvvəllərindən etibarən dövlət vasitəsilə yerinə yetiriləcək bütün yazışmalarda, mətbuatda və digər sahələrdə yeni türk əlifbasından istifadəyə, bundan sonra isə məktəblərdə və digər təhsil sahələrində də yeni əlifba ilə tədrisə başlanılır.

Qazaxıstanda da əlifba islahatının həyata keçirilməsində mühüm addımlar atılır. Qəbul edilən yeni qazax əlifbasına baxdıqda görə bilərik ki, bu əlifbadakı fərqli işarələrin əlifbada olması gələcəkdə həmin dilin əlifbası üçün uğurlu hesab olunmur.

Türkmən dili əlifba islahatlarının aktiv şəkildə həyata keçirildiyi dillərdən biri kimi diqqəti cəlb edir. 70 ilə yaxın bir zaman ərzində dörd əlifba dəyişdirən türkmənlərin yeni əlifbaları, bir çox qüsurların yaranmasına səbəb olmuşdur. Bu qüsurlar türkmən-latın əlifbasını türk-latın əlifbalarından uzaqlaşdırmış və əlifba birliyi ilə ortaqlıq əlaqələrinin pozulmasına yol açmışdır.

Qırğızıstanda dəfələrlə əlifba islahatları keçirilməsinə baxmayaraq, hələ də qırğız dilinin latın əlifbasına keçid məsələsi iqtisadi çətinliklərlə əlaqədar bir layihə olaraq qalır.

Türk dünyası üçün ortaq əlifba və ortaq türk dilinin tətbiqi zamanı Azərbaycan və Türkiyə türkcəsində istifadə olunan əlifbaların əsas rol oynayacağı proqnozlaşdırılır. Bu zaman digər türk dillərinə yanaşmalar da düzgün müəyyən olunmalı, dillərin əsas spesifik xüsusiyyətləri nəzərə alınmalıdır. Türk dillərinin ortaq ünsiyyət vasitəsinin və ortaq əlifbanın qəbul edilməsi türk dillərinin tarixi yaxınlığının müasir dövrdə sürətlənməsinə səbəb olacaq. Ortaq türkcə (ünsiyyət dili) yalnız bir dilin inkişafını təmin etməklə türk dillərinin gələcəyini şübhə altına almamalı, əksinə, artıq az işlək olan türk dilləri də nəzərə alınmalıdır. Yuxarıda qeyd olunan məsələlərin türk dünyası üçün böyük əhəmiyyətini nəzərə alaraq bu sahədə işlərin sürətləndirilməsi olduqca zəruridir. Türk xalqları arasında vahid ünsiyyət dilinin yaradılması və türk xalqlarının mənşə (tarixi formalaşma) prinsipinə əsasən inteqrasiyası ilə bağlı qərarlar hökumətlər səviyyəsində qəbul edildiyi halda, bu cür dəstəyin göstərilməsi labüd və gözləniləndir. Ortaq türk dilinin formalaşdırılması müasir türk dünyasının aktual tələbidir.

ƏDƏBİYYAT

1. 1926-cı il I Bakı Türkoloji qurultayı (Stenoqram materialları, biblioqrafiya və foto-sənədlər). (prof. Kamil Vəli Nərimanoğluoğlu, Əliheydər Ağakişiyev). Bakı, Çinar – Çap, 2006.
2. В борьбе за новый тюркский алфавит. Сборник статей. Изд. Научной ассоциации востоковедения при ЦИК СССР. Москва, 1926.
3. Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəflər. Elmi sessiyanın materialları. Bakı. 10 iyun 2016-cı il.
4. Абытов Б. Первый курултай тюркологов – курултай репрессированных и расстрелянных. 2025
5. İsmayılova M.Türk dilləri dialektlərində inteqrasiya və diferensiasiya məsələləri. Ankara, 2022, 297 səh.
6. Бодуен де Куртене. Несколько слов по поводу. «Общеславянской азбуке». СПБ, 1871.
7. Qurbanov A. Ümumi dilçilik. I cild. Bakı, Nurlan, 2004.
8. İsmayılova M. Azərbaycan dili və nitq mədəniyyəti. Dərslik. I cild, Bakı, 2016.
9. Zeynalov F. R. Türkologiyanın əsasları. Bakı: Maarif, 1981, s. 258.
10. Axundov A. Azərbaycan dilinin fonemlər sistemi. Bakı, 1973.